**Davudov D.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.77-86**
**UDC: 342.7+347.22**

# Features of fixing and ensuring the right to property in the constitutions of the CIS countries in a comparative context

**Abstract:** At this stage of the development of constitutional law, the constitutions of states enshrine rights and freedoms, based on the most important international legal acts on rights and freedoms, both universal and regional levels. For the countries of the Commonwealth of Independent, the consolidation of human rights and freedoms in the constitutions of states on the basis of common approaches is of fundamental importance. This is a prerequisite for the successful formation of modern legal states of the post-Soviet space, the development of humanitarian cooperation between them. A comparative legal study of the constitutional regulation of human rights and freedoms in the CIS countries is relevant against the background of the processes of globalization and integration, the rapprochement of economic, legal and socio-cultural spaces taking place in the world and within the framework of the states under consideration. In the article, the author made an attempt to consider the main features of securing and ensuring the right to property in the constitutions of the CIS countries in a comparative context.

**Key words:** comparative law; foreign states; Commonwealth of Independent States; constitution; right to property; legal regulation; analysis.

## References

1. Aliyev Sh.M. Scientific practical commentary to the Constitution of the Republic of Azerbaijan. Baku, Yuridicheskaya literatura Publ., 2000, 728 p. (in Russian).

2. Grigonis E.P., Grigonis V.P. Constitutional law of foreign countries. Course of lectures. S. Petersburg, Piter Publ., 2002, 416 p. (in Russian).

3. Constitutional law of foreign countries. Textbook for Universities. Ed. by M.V. Baglay, Yu.I. Leybo and L.M.Entin. Moscow, Norma Publ., 2004, 832 p. (in Russian).

4.Constitution of the Republic of Kazakhstan. Scientific practical commentary. Ed. byI.I. Rogov. Astana, Poligrafkombinat Resp. Kazakhstan Publ., 2018, 640 p. (in Russian).

5. Commentary to the Constitution of the Republic of Uzbekistan. Ed. by Sh.Z. Urazbayev. Tashkent, Uzbekiston Publ., 2001, 575 p. (in Russian).

6. Commentary to the Constitution of Russian Federation (by article). Ed. by T.Ya. Khabriyeva. Moscow, INFRA-M Publ., 2021, 368 p. (in Russian).

7. PlyakhimovichI.I. Commentary to the Constitution of the Republic of Belarus: in 2 volumes. V. 1. Minsk, Amalfeya, 2015, 1224 p. (in Russian).

[♦] **Davudov Davud Rasim oglu** - PhD in Law, Lecturer of "Law" Department of National Aviation Academy (Azerbaijan). E-mail: ddavudov@naa.edu.az

**Davudov D.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.77-86**
**UOT: 342.7+347.22**

# Müqayisəli kontekstdə MDB ölkələrinin konstitusiyalarında mülkiyyət hüququnun təsbit və təmin edilməsi xüsusiyyətləri

**Xülasə:** Konstitusiya hüququnun hazırki inkişaf mərhələsində ayrı-ayrı dövlətlərin konstitusiyalarında insan hüquq və azadlıqları həm universal, həm də regional səviyyəli beynəlxalq-hüquqi aktların müddəa və tələblərinə əsaslanmaqla təsbit edilir. Müstəqil Dövlətlər Birliyi ölkələrinin konstitusiyalarında insan hüquq və azadlıqlarının ümumqəbuledilmiş yanaşmalar əsasında təsbit edilməsinin prinsipial əhəmiyyəti vardır. Bu, MDB ölkələrinin post sovet məkanında müasir hüquqi dövlət quruculuğunun uğurlu olmasının və onların öz aralarında humanitar əməkdaşlığın təmin edilməsinin zəruri şərti kimi çıxış edir. MDB ölkələrində insan hüquq və azadlıqlarının konstitusion tənzimlənməsinin müqayisəli hüquqi tədqiqatları həm dünyada, həm də qeyd edilən ölkələr hüdudlarına baş verən qloballaşma və inteqrasiya prosesləri, iqtisadi, hüquqi, sosial-mədəni mühitlərin yaxınlaşması fonunda kifayət qədər aktualdır. Məqalədə müəllif MDB ölkələrinin konstitusiyalarında mülkiyyət hüququnun təsbit və təmin edilməsi xüsusiyyətlərini müqayisəli kontekstdə araşdırmağa cəhd göstərmişdir.

**Açar sözlər:** müqayisəli hüquqşünaslıq; xarici dövlətlər; Müstəqil Dövlətlər Birliyi; konstitusiya; mülkiyyət hüququ; hüquqi tənzimetmə; təhlil.

Müqayisəli hüquqi tədqiqat metodu müasir hüquq elminin əsas metodlarından biridir. Elmlərin digər sahələrindən fərqli olaraq, hüquqşünaslıqda müqayisə metodu təcrübəsi öyrənilən dövlətlərdən birinin digərindən üstünlüyünü müəyyən etmək məqsədilə yox, oxşar və fərqli cəhətlərin müəyyən edilməsi məqsədilə tətbiq edilir. Bundan başqa, hüquqşünaslıqda müqayisə metodu tətbiq edilərkən nəzərə alınır ki, hüquq təkcə fəlsəfi bir anlayış deyil, həm də tətbiqi bir anlayışdır və bu səbəbdən, müxtəlif hüquq sistemləri daxilində eyni hüquq institutları müxtəlif cür tətbiq edilə bilər. Konstitusiya hüququnda da müqayisəli tədqiqat metodu səmərəli araşdırma metodlarından biri kimi çıxış edir. “Xarici dövlətlərin konstitusiya hüququ” kimi müstəqil bir sahə məhz bu metod əsasında formalaşmış, inkişaf etmiş və müəyyən mənada, konstitusiya hüququndan ayrılmağı bacarmışdır [2, s. 10-12].

Hüquq institutlarının öyrənilməsindəki səmərəliliyini nəzərə alaraq, biz də mülkiyyət hüququnun və onun təminatlarının Əsas Qanunda, ali hüquqi qüvvəli nomativ aktda təsbit edilməsi xüsusiyyətləriniMüstəqil Dövlətlər Birliyi (bundan sonra – MDB) ölkələrinin təcrübəsi prizmasından nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

MDB keçmiş SSRİ ölkələrinin əksəriyyətinin birləşdiyi dövlətlərarası birlikdir. O, ilkin dövrdə üç dövlət – Rusiya Federasiyası, Ukrayna və Belarusiya Respublikası tərəfindən qurulmuşdur. MDB-nin qurulması haqqında ilkin razılıq 1991-ci il dekabrın 8-də qəbul edilmişdir. Bu dövlətlər SSRİ-nin

[♦]**Davudov Davud Rasim oğlu** - hüquq üzrə fəlsəfə doktoru, Milli Aviasiya Akademiyasının “Hüquq” kafedrasının müəllimi (Azərbaycan). E-mail: ddavudov@naa.edu.az

dağılmasının labüdlüyünü anlayır və öz aralarında sonralar siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək üçün bu qurumu təşkil etdilər. Daha sonralar Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Moldava, Tacikistan, Türkmənistan, Özbəkistan 21 dekabr 1991-ci ildə Alma-Ata şəhərində Rusiya, Ukrayna və Belarusiya ilə birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəldilər. Azərbaycan Parlamenti bu qərarı yalnız 1993-cü ilin sentyabrında ratifikasiya etdi və MDB-nin tam hüquqlu üzvü oldu. MDB-nin Nizamnaməsi 1993-cü ildə qəbul edilmişdir və Nizamnamədə dövlətlərin aşağıdakı birgə fəaliyyət sahələri vurğulanır: insan hüquq və azadlıqlarının təmin olunması; xarici siyasət fəlaiyyətinin əlaqələndirlməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat və rabitə sahələrində əməkdaşlığın inkişaf etdirilməsi; əhalinin sağlamlığının və ətraf mühitin qorunması; sosial və immiqrasiya siyasəti məsələləri; mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin mühafizəsində əməkdaşlıq [3, s. 671].

Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. 1993-cü ilin oktyabr ayında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında Rusiya ordusunun Gürcüstana daxil olmasından sonar həmin qurumun üzvlüyündən çıxmışdır. Ukrayna isə 2014-cü ilin mart ayında Rusiya ordusunun Krıma daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxmışdır.

İndi isə, ayrı-ayrı MDB ölkələrinin Əsas Qanunlarında mülkiyyət hüququnun və onun təminatlarının hansı qaydada nizamlandığına nəzər yetirək.

Rusiya Federasiyasının (bundan sonra – RF) 12 dekabr 1993-cü il tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında, Azərbaycan Respublikasının (bundan sonra – AR) Əsas Qanunundan fərqli olaraq (bizim Konstitusiyamızda 13-cü maddə "Mülkiyyət", 29-cu maddəsi isə, "Mülkiyyət hüququ" adlanır), maddələrin adları mövcud deyildir. Odur ki, RF Konstitusiyasında mülkiyyət hüququnun və onun təminatlarının hansı maddələrdə təsbit edilmiş olduğunu müəyyən etməkdən ötrü həmin ali normativ-hüquqi aktın bütün məzmunu tədqiq edilməlidir. Belə bir tədqiqat, eləcə də, RF Konstitusiyasının doktrinal şərhini vermiş alimlərin mülahizələrinin öyrənilməsi nəticəsində belə qənaətə gəlmək mümkündür ki, RF Konstitusiyasında mülkiyyət hüququ və onun təminatları 8-ci, 9-cu, 34-cü və 35-ci maddələr əsasında nizamlanır [6, s. 89-90]. Həmin maddələrdən 8-ci və 9-cu maddələr RF Konstitusiyasının "Konstitusiya quruluşunun əsasları" adalanan I Fəslinə, 34-cü və 35-ci maddələr isə, "İnsan və vətəndaşın hüquq və azadlıqları" adlanan II Fəslinə aiddir. Belə ki, RF Konstitusiyasının 8-ci və 9-cu maddələrinin müddəalarına əsasən, RF-də iqtisadi mühitin vahidliyinə, malların, xidmətlərin və maliyyə vəsaitlərinin azad hərəkətinə, rəqabətin dəstəklənməsinə, iqtisadi fəaliyyətin azadlığına təminat verilir; mülkiyyətin xüsusi, dövlət, bələdiyyə və digər formları bərabər şəkildə tanınır və müdafiə olunur. Rusiya Federasiyasında torpaq və təbii ehtiyatlar müvafiq ərazidə yaşayan xalqların həyatının və fəaliyyətinin əsası kimi istifadə edilir və mühafizə olunur. Torpaq və təbii ehtiyatlar xüsusi, dövlət, bələdiyyə müıkiyyətində və mülkiyyətin digər formalarında ola bilər.

RF Konstitusiyasının 34-cü və 35-ci maddələrinin müddəalarına əsasən isə, hər kəsin öz bacarığından və mülkiyyətindən sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət üçün azad istifadə etmək hüququ vardır. İnhisarçılığa və haqsız rəqabətə yönəlmiş iqtisadi fəaliyyət yolverilməzdir. Xüsusi mülkiyyət hüququ qanunla mühafizə olunur. Hər kəs istər təkbaşına, istərsə də digər şəxslərlə birlikdə əmlaka malik olmağa, ona sahiblik etməyə, ondan istifadə etməyə və onun barəsində sərəncam verməyə haqlıdır. Heç kəs məhkəmənin qərarı olmadan öz mülkiyyətindən məhrun edilə bilməz. Dövlətin ehtiyacları üçün mülkiyyətin məcburi özgəninkiləşdirilməsi yalnız onun əvəzinin əvvəlcədən və qiymətinə bərabər şəkildə ödənilməsi şərti ilə həyata keçirilə bilər. Vərəsəlik hüququna təminat verilir.

Belarus Respublikasının (bundan sonra – BR) 15 mart 1994-cü il tarixli Konstitusiyasında da maddələrin adları mövcud deyildir. Odur ki, RF Konstitusiyasının öyrənilməsi zamanı tətbiq edilmiş eyni metod əsasında belə bir qənaətə gəlmək mümkündür ki, BR Konstitusiyasında mülkiyyət hüququ və onun təminatları 13-cü və 44-cü maddələr əsasında nizamlanır [7, s. 805-808]. BR Konstitusiyasının 13-cü maddəsi “Konstitusiya quruluşunun əsasları” adlanan I Bölmədə, 44-cü maddəsi isə, “Şəxsiyyət, cəmiyyət, dövlət” adlanan II Bölmədə yer almışdır.

Belə ki, BR Konstitusiyasının 13-cü maddəsinin müddəalarına görə, mülkiyyət dövlət mülkiyyəti və xüsusi mülkiyyət formalarında ola bilər. Dövlət, qanunla qadağan olunmuş fəaliyyət növləri istisna olmaqla, hər kəsə təsərüffat fəaliyyəti və digər fəaliyyətlə məşğul olmaq üçün bərabər hüquqlar verir. Dövlət mülkiyyətin bütün formalarının bərabər şəkildə müdafiəsinə və inkişafı üçün bərabər şərtlərə təminat verir. Dövlət hamıya sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət üçün bacarıqlarından və mülliyyətindən azad istifadə edilməsindən ötrü bərabər imkanlara təminat verir. Dövlət insanın və cəmiyyətin maraqları naminə iqtisadi fəaliyyətin tənzimlənməsini həyata keçirir; dövlət və xüsusi iqtisadi fəaliyyətin sosial məqsədlərə yönəlməsini və koordinasiyasını təmin edir. Yerin təki, sular, meşələr dövlətin müstəsna mülkiyyətini təşkil edir. Müqayisə üçün qeyd edək ki, AR Konstitusiyasında dövlətin müstəsna mülkiyyətində olan obyekt qismində AR-in Mərkəzi Bankı göstərilmişdir (AR Konstitusiyasının 19-cu maddəsinin II hissəsi).

BR Konstitusiyasına görə, kənd təsərüffatı təyinatlı torpaqlar dövlətin mülkiyyətindədir. Qanunla yalnız dövlət mülkiyyətində ola bilən digər obyektlər də müəyyən edilə, yaxud onların xüsusi mülkiyyətə keçməsinin xüsusi qaydası nəzərdə tutula, eləcə də, ayrı-ayrı fəaliyyət növləri ilə məşğul olmaya dair dövlətin müstəsna hüququ təsbit edilə bilər. Dövlət işçilərin işinin effektivliyinin artması və həyatlarının sosial-iqtisadi səviyyəsinin yaxşılaşması məqsədilə ilə onların təşkilatların idarə edilməsində iştirak etmək hüququna təminat verir.

BR Konstitusiyasının 44-cü maddəsinin müddəalarına görə isə, dövlət hər kəsin mülkiyyət hüququna təminat verir və onun əldə edilməsinə yardım edir. Mülkiyyətçinin istər təkbaşına, istərsə də digər şəxslərlə birlikdə əmlaka sahib olmaq, ondan istifadə etmək və onun barəsində sərəncam vermək hüququ var. Mülkiyyətin toxunulmazlığı və ona vərəsəlik hüququ qanunla mühafizə olunur. Qanuni yolla əldə edilmiş mülkiyyət dövlət tərəfindən müdafiə olunur. Dövlət vətəndaşların pul yığmasını təşviq və mühafizə edir, əmanətlərin geri qaytarılmasının təminatlarını yaradır. Əmlakın məcburi qaydada özgəninkiləşdirilməsinə yalnız ictimai zərurət motivləri ilə, qanunla müəyyən edilmiş şərtlərə və qaydalara riayət etməklə, özgəninkiləşdirilən əmlakın dəyərinin vaxtında və tam kompensasiya edilməsi şərti ilə, eləcə də, məhkəmə qərarı əsasında yol verilir. Mülkiyyət hüququndan istifadə edilməsi ictimai qayda və təhlükəsizliyə zidd olmamalı, ətraf mühitə, tarixi-mədəni dəyərlərə zərər yetirməməli, digər şəxslərin hüquqlarını və qanunla müdafiə olunan maralarını pozmamalıdır.

Qazaxıstan Respublikasının (bundan sonra – QR) 30 avqust 1995-ci il tarixli Konstitusiyasında da maddələr adlara malik deyildirlər. Odur ki, RF və BR Konstitusiyalarının öyrənilməsi zamanı tətbiq edilmiş eyni metod əsasında belə qənaətə gəlmək mümkündür ki, QR Konstitusiyasında mülkiyyət hüququ və onun təminatları 6-cı və 26-cı maddələr əsasında nizamlanır [4, s. 218-223]. QR Konstitusiyasının 6-cı maddəsi “Ümumi müddəalar” adlanan I Bölmədə, 26-cı maddəsi isə, “İnsan və vətəndaş” adlanan II Bölmədə yer alır.

Belə ki, QR Konstitusiyasının 6-cı maddəsinin müddəalarına görə, Qazaxıstanda dövlət mükiyyəti və xüsusi mülkiyyət növləri tanınır və bərabər şəkildə müdafiə olunur. Baxılan maddədə

vurğulanır ki, mülkiyyət öhdəliyə səbəb olur, mülkiyyətdən istifadə edilməsi eyni zamanda həm də ictimai rifaha xidmət etməlidir. Mülkiyyətin subyektləri və obyektləri, mülkiyyətçilərin öz hüquqlarını həyata keçirməsinin həcmi və hüdudları, bu hüquqların müdafiə olunmasının təminatları qanunla müəyyən olunur. Torpaq və yerin təki, sular, bitki və heyvanat aləmi, digər təbii ehtiyatlar xalqa mənsubdur. Xalqın adından mülkiyyət hüququndan dövlət istifadə edir. Torpaq, həmçinin, qanunla müəyyən edilmiş əsaslar, şərtlər və hüdudlarda xüsusi mülkiyyətdədir.

QR Konstitusiyasının 26-cı maddəsinin müddəalarına görə isə, Qazaxıstan vətəndaşlarının xüsusi mülkiyyətində qanuni yolla əldə edilmiş istənilən əmlak ola bilər. Maraqlı bir fərqdir ki, əgər AR Konstitusiyasının 29-cu maddəsinin I hissəsi hər kəsin mülkiyyət hüququnu tanıyırsa, QR Konstitusiyasının 26-cı maddəsinin I hissəsi yalnız Qazaxıstan Respublikasının vətəndaşlarının xüsusi mülkiyyətə malik olmaq hüququndan bəhs edir. QR Konstitusiyasının 26-cı maddəsində daha sonra göstərilir ki, mülkiyyətə, o cümlədən, vərəsəlik hüququna qanunla təminat verilir. Məhkəmənin qərarı mövcud olduğu hallardan başqa, heç kəs öz mülkiyyətindən məhrum edilə bilməz. Dövlətin ehtiyacları üçün mülkiyyətin məcburi qaydada özgəninkiləşdirilməsi, qanunla müəyyən edilmiş müstəsna hallarda əvəzinin onun dəyərinə bərabər olaraq ödənilməsi şərti ilə həyata keçirilə bilər. Hər kəsin azad sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ, istənilən qanuni sahibkarlıq fəaliyyətində öz mülkiyyətindən azad şəkildə istifadə etmək hüququ vardır. İnhisarçılıq fəaliyyəti qanunla tənzim edilir və məhdudlaşdırılır. Haqsız rəqabət qadağan edilir.

Türkmənistan Respublikasının (bundan sonra – TR) 18 may 1992-ci il tarixli Konstitusiyasında da maddələrin adları mövcud deyildir. TR Konstitusiyasının sistemli təhlili göstərir ki, onun məzmununda mülkiyyət hüququ və onun təminatları 12-ci və 48-ci maddələr əsasında nizamlanır. TR Konstitusiyasının 12-ci maddəsi "Türkmənistanın konstitusiya quruluşunun əsasları" adlanan I Bölmədə, 48-ci maddəsi isə, "Türkmənistanda insan və vətəndaşın hüquqları, azadlıqları və vəzifələri" adlanan II Bölmədə yer alır.

Belə ki, TR Konstitusiyasının 12-ci maddəsinə əsasən, mülkiyyət toxunulmazdır. Türkmənistan torpaq, istehsalat vasitələri, digər maddi və intellektual dəyərlər üzərində xüsusi mülkiyyət hüququnu tanıyır. Onlar, həmçinin, vətəndaşların birliklərinə və dövlətə məxsus ola bilər. Qanunla dövlətin müstəsna mülkiyyətində olan obyektlərin dairəsi müəyyən edilir. Dövlət mülkiyyətin bütün növlərinin bərabər müdafiəsinə təminat verir və onların inkişafı üçün bərabər şərtlər yaradır. Qanunla qadağan edilmiş üsulla əldə edilmiş mülkiyyət istisna olmaqla, mülkiyyətin müsadirə edilməsinə yol verilmir. Mülkiyyətin əvəzi ödənilməklə məcburi olaraq götürülməsinə yalnız qanunla nəzərdə tutulmuş hallarda yol verilir.

TR Konstitusiyasının 48-ci maddəsində isə, göstərilir ki, xüsusi mülkiyyət hüququ qanunla mühafizə olunur. Hər bir insan, istər təkbaşına, istərdə də, digər şəxslərlə birlikdə əmlaka malik olmağa, ona sahiblik etməyə, ondan istifadə etməyə və onun barəsində sərəncam verməyə haqlıdır. Vərəsəlik hüququna təminat verilir.

Özbəkistan Respublikasının (bundan sonra – ÖR) 08 dekabr 1992-ci il tarixli Konstitusiyasının (30 aprel 2023-cü il tarixdə ÖR Konstitusiyasının yeni redaksiyası referendum yolu ilə qəbul edilmiş və bu redaksiya ilə Əsas Qanun təqribən 65 %-dək yenilənmiş olsa da, bu, Özbəkistanda yeni Konstitusiyanın qəbul edilməsi kimi başa düşülməməlidir; həmin tarixdə yeni Konstitusiya deyil, "Özbəkistan Respublikasının Konstitusiyası haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir) da maddələri adlara malik deyildir. ÖR Konstitusiyasının sistemli analizindən belə nəticə çıxarmaq olar ki, onun məzmununda mülkiyyət hüququ və onun təminatları 41-ci, 65-ci, 66-cı və 68-ci maddələr əsasında nizamlanır [5]. ÖR Konstitusiyasının 41-ci maddəsi "İnsan və

vətəndaşın əsas hüquqları, azadlıqları və vəzifələr" adlanan II Bölmədə, 65-ci, 66-cı və 68-ci maddələri isə "Cəmiyyət və şəxsiyyət" adalanan III Bölmədə yer almaqdadır.

Belə ki, ÖR Konstitusiyasının 41-ci maddəsinə əsasən, hər kəsin mülkiyyət hüququ vardır. Bank əməliyyatlarının, bank əmanətlərinin və hesablarının sirrinə, eləcə də, vərəsəlik hüququna qanunla təminat verilir.

ÖR Konstitusiyasının 65-ci, 66-cı və 68-ci maddələrinin müddəalarına görə isə, Özbəkistanın vətəndaşların rifahının yüksəlməsinə yönəlmiş iqtisadiyyatının əsasınıözünün müxtəlif formaları ilə mülkiyyət təşkil edir. Dövlət bazar münasibətlərinin inkişafı və haqlı rəqabət üçün şərait yaradır, istehlakçıların hüquqlarının prioritetliyi şərti ilə iqtisadi fəaiyyətin, sahibkarlığın və əməyin azadlığına təminat verir. Özbəkistanda mülkiyyətin bütün formalarının bərabərhüquqluğunu və hüquqi müdafiəsi təmin edilir. Xüsusi mülkiyyət toxunulmazdır. Mülkiyyətçi qanunla müəyyən edilmiş hallardan və qaydadan kənar, həmçinin məhkəmə qərarının mövcud olduğu hal istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz. Mülkiyyətçi ona məxsus olan əmlaka öz mülahizəsinə görə sahiblik edir, ondan istifadə edir və onun barəsində sərəncam verir. Mülkiyyətdən istifadə edilməsi ətraf mühitə zərər vurmamalı, digər şəxslərin, cəmiyyətin və dövlətin hüquqlarını və qanuni maraqlarını pozmamalıdır. Torpaq, yerin təki, sular, bitki və heyvanat aləmi və digər təbii ehtiyatlar ümummilli sərvət olub, ağlabatan (rasional) şəkildə istifadə edilməlidir və dövlət tərəfindən mühafizə olunur. Torpaq, qanunla müəyyən edilmiş, ondan ağlabatan (rasional) istifadəni və onun ümummilli sərvət kimi mühafizəsini təmin edən şərtlərlə və qaydada xüsusi mülkiyyətdə ola bilər.

Tacikistan Respublikasının (bundan sonra – Tacik.R) 06 noyabr 1994-cü il tarixli Konstitusiyasında da maddələr üçün adlar nəzərdə tutulmamışdır. Tacik.R Konstitusiyasının mətninin öyrənilməsi göstərir ki, bu ali hüquqi qüvvəli normativ-hüquqi aktda mülkiyyət hüququ və onun təminatları 12-ci, 13-cü, 20-ci və 32-ci maddələr əsasında nizamlanır. Tacik.R Konstitusiyasının 12-ci və 13-cü maddələri "Konstitusiya quruluşunun əsasları" adlı I Fəsidə, 20-ci və 32-ci maddələri isə "İnsan və vətəndaşın hüquqları, azadlıqları, əsas vəzifələri" adlanan II Fəsildə yer alır.

Belə ki, Tacik.R Konstitusiyasının 12-ci və 13-cü maddələrinin müddəalarına görə, Tacikistanın iqtisadiyyatının əsaslarını mülkiyyətin müxtəlif formaları təşkil edir. Dövlət iqtisadi və sahibkarlıq fəaliyyətinin azadlığına, mülkiyyətin bütün formalarının, o cümlədən. xüsusi mülkiyyətin bərabərhüquqluğuna və hüquqi müdafiəsinə təminat verir. Torpaq, yerin təki, su, hava məkanı, heyvanat və bitki aləmi və digər təbii ehtiyatlar dövlətin müstəsna mülkiyyəti hesab edilir. Dövlət onlardan xalqın mənafeyi naminə səmərəli istifadəsinə təminat verir.

Müqayisə üçün qeyd edək ki, AR Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə əsasən, AR-in daxili suları, Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsi, AR üzərindəki hava məkanı dövlət ərazisinin tərkib hissəsi kimi təsbit edilmişdir. Konstitusiyamızım 14-cü maddəsində isə, təbii ehtiyatlara münasibətdə "dövlətin müstəsna mülkiyyətindədir" ifadəsindən istifadə edilməsə də, təbii ehtiyatların hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsub olduğu göstərilmişdir.

Tacik.R Konstitusiyasının 20-ci maddəsi mülkiyyət hüququndan daha çox şəxsiyyətin cinayət mühakimə icraatı ilə əlaqədar hüquqlarını özündə əks etdirsə də, bizim diqqətimizi belə bir məqam cəlb etdi ki, AR Konstitusiyasında əmlakın tam müsadirəsinin yolverilməzliyinə dair qadağa "Mülkiyyət hüququ" adlı 29-cu maddənin IV hissəsinin ikinci cümləsində təsbit edilmişdirsə, məhkumun əmlakının tam müsadirəsinə dair qadağa Tacik.R Konstitusiyasının 20-ci maddəsinin dördüncü hissəsində təqsirsizlik prezumpsiyası, təkrar məhkumetmənin yolverilməzliyi və s. bu

kimi, daha çox cinayət mühakimə icraatı sferasına aid olan hüquqlarla bir arada nəzərdə tutulmuşdur.

Tacik.R Konstitusiyasının 32-ci maddəsi isə, sırf mülkiyyət hüququna həsr olunmuşdur. Həmin maddənin müddəalarına görə, hər kəsin mülkiyyət və vərəsəlik hüququ mövcuddur. Heç kəsin vətəndaşı mülkiyyət hüququndan məhrum etməyə və onun bu hüququnu məhdudlaşdırmağa haqqı yoxdur. Şəxsi əmlakın dövlət tərəfindən ictimai ehtiyaclar üçün götürülməsinə yalnız qanun əsasında və əmlakın dəyərinin tam olaraq əvəzinin ödənilməsi şərti ilə mülkiyyətçinin razılığı ilə yol verilir. Şəxsiyyətə dövlət orqanlarının, ictimai birliklərin, siyasi partiyaların, digər hüquqi və ya fiziki şəxslərin qanunsuz hərəkətləri nəticəsində vurulmuş maddi və mənəvi zərərin əvəzi qanuna müvafiq olaraq sonuncuların hesabına ödənilir.

Qırğızıstan Respublikasının (bundan sonra – Qırğız.R) 11 aprel 2021-ci il tarixli Konstitusiyasında da maddələrə adlar verilməmişdir. Qırğız.R Konstitusiyasının sistemli şəkildə öyrənilməsi belə nəticə çıxarmağa əsas verir ki, mülkiyyət hüququ və bu hüququn təminatı məsələləri onun 15-ci, 16-cı, 40-cı və 41-ci maddələri əsasında nizamlanır. Qırğız.R Konstitusiyasının 15-ci və 16-cı maddələri “Konstitusiya quruluşunun sosial-iqtisadi əsasları” adlanan II Fəsildə, 40-cı və 41-ci maddələri isə, “İqtisadi və sosial hüquqlar” adlanan IV Fəsildə yer almaqdadır.

Belə ki, Qırğız.R Konstitusiyasının 15-ci və 16-cı maddələrinin müddəalarına əsasən, Qırğızıstanda xüsusi, dövlət, bələdiyyə mülkiyyəti və mülkiyyətin digər formaları bərabər dərəcədə tanınır və müdafiə olunur. Mülkiyyət toxunulmazdır. Heç kəs özbaşınalıqla mülkiyyətindən məhrum edilə bilməz. Vərəsəlik hüququna təminat verilir. Mülkiyyətçinin iradəsi əleyhinə onun əmlakının götürülməsinə yalnız qanunla müəyyən edilmiş qaydada məhkəmə qərarı əsasında yol verilir. Əmlakın qanunla müəyyən edilmiş ictimai və dövlət ehtiyacları üçün götürülməsi yalnız məhkəmə qərarı əsasında, həmin əmlakın dəyərinin və onun özgəninkiləşdirilməsinin nəticəsində dəymiş zərərin əvəzinin ədalətlə və əvvəlcədən ödənilməsi yolu ilə həyata keçirilir. Vətəndaşların və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlət mülkiyyətinə keçirilməsi (milliləşdirilməsi) həmin əmlakın və digər xərclərin əvəzinin ödənilməsi ilə qanun əsasında həyata keçirilir. Qırğızıstan Respublikası öz vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətini, eləcə də, özünün xarici dövlətlərin ərazisində olan müıkiyyətini müdafiə edir. Mədəni-tarixi irsin abidələri, memarlıq, arxeoloji obyektlər və tapıntılar dövlət mülkiyyəti olub, qanunla xüsusi şəkildə mühafizə olunur. Torpaq, yerin təki, hava məkanı, sular, meşələr, otlaqlar, bitki və heyvanat aləmi, digər təbii ehtiyatlar Qırğızıstan Respublikasının müstəsna mülkiyyətindədir. Torpaqdan və təbii ehtiyatlardan Qırğızıstan Respublikasının xalqının həyatının və fəaliyyəinin əsası kimi istifadə olunur; vahid ekoloji sistemin qorunması və dayanıqlı inkişafı üçün onlar dövlətin nəzarəti və xüsusi mühafizəsi altındadır. Otlaqlar və meşələr istisna olmaqla, torpaq xüsusi və bələdiyyə mülkiyyəti formasında mülkiyyətçiyə məxsus ola bilər. Torpaq əcnəbi vətəndaşların və əcnəbi iştirakla hüquqi şəxsin xüsusi mülkiyyətində ola bilməz. Torpaq mülkiyyətçilərinin hüquqlarının müdafiə olunmasının təminatları qanunla müəyyən olunur.

Qırğız.R Konstitusiyasının 40-cı və 41-ci maddələrinin müddəalarına görə isə, hər kəsin öz əmlakına, öz fəaliyyətinin nəticələrinə sahiblik etmək, ondan istifadə etmək və ona sərəncam vermək hüququ vardır. Hər kəsin iqtisadi azadlığa, öz bacarıqlarından və öz mülkiyyətindən qanunla qadağan edilməmiş istənilən iqtisadi fəaliyyət üçün azad istifadəyə hüququ vardır.

Moldova Respublikasının (bundan sonra – MR) 29 iyul 1994-cü il tarixli Konstitusiyasında AR Konstitusiyasında olduğu kimi, hər bir maddənin öz adı vardır. Belə ki, MR Konstitusiyasının

"Əsas prinsiplər" adlanan I Bölməsində yer alan 9-cu maddəsi "Mülkiyyətin əsas prinsipləri", "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan II Bölməsində yer alan 46-cı maddəsi isə "Xüsusi mülkiyyət hüququ və onun mühafizəsi" adlandırılmışdır. Bu anlamda, MR Konstitusiyasında mülkiyyət hüququ və bu hüququn təminatı məsələləri əsasən onun 9-cu və 46-cı maddələri ilə nizamlanır.

Belə ki, MR Konstitusiyasının 9-cu maddəsinin müddəalarına əsasən, mülkiyyət ictimai (publik) və xüsusi ola bilər. Mülkiyyət maddi və intellektual dəyərlərdən ibarətdir. mülkiyyətdən insanın hüquqları, azadlıqları və ləyaqəti əleyhinə istifadə oluna bilməz. Bazar, azaq iqtisadi təşəbbüskarlıq və haqlı rəqabət iqtisadiyyatın təməl faktorlarıdır.

MR Konstitusiyasının 46-cı maddəsində isə göstərilir ki, xüsusi mülkiyyət hüququna, eləcə də, dövlətin öz üzərinə götürdüyü borc öhdəliklərinə təminat verilir. Qanunla müəyyən edilmiş ictimai zərurətlə əlaqədar əvəzinin əvvəlcədən və ədalətlə ödənilməsi halı istisna olmaqla, heç kəs öz mülkiyyətindən məhrum edilə bilməz. Qanuni yolla əldə edilmiş mülkiyyət müsadirə edilə bilməz. Əldə edilmiş mülkiyyətin qanuniliyi prezumpsiya kimi qəbul edilir (yəni əksi sübut olunmayana qədər istənilən mülkiyyətin qanuni yolla əldə edilmiş olduğu qəbul edilir). Cinayətin və ya hüquq pozuntusunun törədilməsi üçün nəzərdə tutulmuş, istifadə edilmiş, yaxud cinayətin və ya hüquq pozuntusunun törədilməsi nəticəsində əldə edilmiş əmlak yalnız qanuna müvafiq olaraq müsadirə edilə bilər. MR-də xüsusi mülkiyyətə vərəsəlik hüququna təminat verilir. Xüsusi mülkiyyət hüququ ətraf mühitin müdafiəsinə dair tələblərə əməl etmək, xoş qonşuluq qaydalarına əməl etmək və mülkiyyətçinin üzərinə qanunla qoyulan digər tələblərə riayət etmək öhdəlikləri yaradır. Bənzər müddəa, daha lakonik şəkildə AR Konstitusiyasının 29-cu maddəsinin V hissəsində də nəzərdə tutulur. Doktrinada buna "mülkiyyətin sosial funksiyası" deyilir [1, s. 54].

Beləliklə, cari məqalə hüdudlarında aparılmış tədqiqatın əsas nəticələri olaraq qeyd edə bilərik ki:

- MDB ölkələrinin Əsas Qanunlarında mülkiyyət hüququna kifayət qədər yüksək əhəmiyyət verilir və bu hüquqla bağlı məsələlər, bir qayda olaraq, həm dövlətin, onun konstitusion quruluşunun əsaslarına dair bölmələrdə / fəsillərdə, həm də insan və vətəndaşın hüquqlarının dairəsini müəyyən edən bölmələrdə / fəsillərdə nizamlanır;
- AR Konstitusiyasında mülkiyyət hüququna və onun təminatlarına dair sərgilənmiş yanaşmaların bir çoxu digər MDB ölkələrinin də Əsas Qanunlarında müşahidə edilir. Demək olar ki, bütün MDB ölkələrinin Konstitusiyalarında: mülkiyyətin toxunulmazlığı bəyan edilir; mülkiyyətdən şəxsiyyət, cəmiyyət və dövlət əleyhinə istifadə bu və ya digər formada qadağan edilir; mülkiyyət hüququnun qanunla qorunması bəyan edilir; mülkiyyət hüququnun tərkib elementləri qismində mülkiyyətə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermə hüquqları göstərilir; vərəsəlik hüququ təmin edilir və s.;
- oxşar cəhətləri ilə yanaşı, mülkiyyət hüququna və onun təminatlarına dair müddəalara mübasibətdə AR Konstitusiyası ilə MDB ölkələrinin Konstitusiyaları arasında fərqlər də müəyyən edilmişdir. Məsələn, ölkəmizin Əsas Qanunda mülkiyyətin üç növü fərqləndirilsə də, bəzi MDB ölkələrində (məsələn, RF, Qırğız.R) mülkiyyətin dördüncü növü də fərqləndirilir, bəzilərində (məsələn, MR, TR) isə, mülkiyyətin cəmi iki növü tanınır və bələdiyyə mülkiyyəti müstəqil növ kimi qəbul edilmir.

Bəzi MDB ölkələrində xüsusi mülkiyyət hüququ vətəndaşlıq institutu ilə əlaqələndirilir. Məsələn, QR Konstitusiyasının 26-cı maddəsi Qazaxıstan vətəndaşlarının xüsusi mülkiyyət hüququndan bəhs edir, Qırğız.R-də konstitusion müddəa səviyyəsində torpağın əcnəbi vətəndaşların

və əcnəbi iştirakla hüquqi şəxsin xüsusi mülkiyyətində olması qadağan edilir və s. Ölkəmizin Əsas Qanununda isə belə məhdudiyyətlər nəzərdə tutulmamışdır.

Bəzi MDB ölkələrinin (məsələn, BR) Konstitusiyalarında dövlətin müstəsna mülkiyyətində olan obyektlər qismində yerin təki, sular, meşələr, bəzilərində (Tacik.R) hava məkanı, heyvanat və bitki aləmi və s. göstərilirsə, bizim Konstitusiyamızda dövlətin müstəsna mülkiyyətində olan obyekt kimi yalnız Mərkəzi Bank göstərilir, daxili sular, Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan bölməsi və hava məkanı isə AR ərazisinin tərkib hissəsi kimi bəyan edilir, Konstitusiyamızım 14-cü maddəsində təbii ehtiyatlara münasibətdə "dövlətin müstəsna mülkiyyətindədir" ifadəsindən istifadə edilməsə də, təbii ehtiyatların hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsub olduğu göstərilmişdir və s.

## Biblioqrafiya

1. Алиев Ш.М. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. - Баку: Юридическая Литература, 2000. - 728 с.

2. Григонис Э.П., Григонис В.П. Конституционное право зарубежных стран. Курс лекций. - Санкт-Петербург: Питер, 2002. - 416 с.

3. Конституционное право зарубежных стран. Учебник для вузов / Под ред. М.В. Баглая, Ю.И. Лейбо и Л.М. Энтина. – М.: Норма, 2004. - 832 с.

4. Конституция Республики Казахстан. Научно-практический комментарий / ред. И.И. Рогов. - Астана: Полиграфкомбинат Республики Казахстан, 2018.- 640 с.

5. Комментарий к Конституции Республики Узбекистан / ред. Ш.З. Уразаев. - Ташкент: Издательство Узбекистон, 2001. - 575 с.

6. Комментарий к Конституции Российской Федерации (постатейный) / под ред. Т.Я. Хабриевой. –М.: ИНФРА-М, 2021. - 368 с.

7. Пляхимович И.И. Комментарий к Конституции Республики Беларусь: в 2-х т. Т. 1. - Минск: Амалфея, 2015. - 1224 с.

**Давудов Д.Р.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.77-86**
**УДК: 342.7+347.22**

## Особенности закрепления и обеспечения права на собственность в конституциях стран СНГ в сравнительном контексте

**Аннотация:** На данном этапе развития конституционного права конституции государств закрепляют права и свободы, основываясь на важнейших международно-правовых актах о правах и свободах, как универсального, так и регионального уровней. Для стран Содружества Независимых Государств закрепление прав и свобод человека в конституциях го-

♦ **Давудов Давуд Расим оглы** - доктор философии по праву, преподаватель кафедры «Право» Национальной Академии Авиации (Азербайджан). E-mail: ddavudov@naa.edu.az

сударств на основе общих подходов имеет принципиальное значение. В этом состоит необходимое условие успешного становления современных правовых государств постсоветского пространства, развития гуманитарного сотрудничества между ними. Сравнительно-правовое исследование конституционного регулирования прав и свобод человека в странах СНГ актуально на фоне происходящих в мире и в рамках рассматриваемых государств процессов глобализации и интеграции, сближения экономических, правовых и социокультурных пространств. В статье автор предпринял попытку рассмотреть основные особенности закрепления и обеспечения права на собственность в конституциях стран СНГ в сравнительном контексте.

**Ключевые слова:** сравнительное правоведение; зарубежные государства; Содружество Независимых Государств; конституция; право на собственность; правовое регулирование; анализ.

## Библиография

1. Алиев Ш.М. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. - Баку: Юридическая Литература, 2000.- 728 с.

2. Григонис Э.П., Григонис В.П. Конституционное право зарубежных стран. Курс лекций. - Санкт-Петербург: Питер, 2002.- 416 с.

3. Конституционное право зарубежных стран. Учебник для вузов / Под ред. М.В. Баглая, Ю.И. Лейбо и Л.М. Энтина. – М.: Норма, 2004.- 832 с.

4. Конституция Республики Казахстан. Научно-практический комментарий / ред. И.И. Рогов. - Астана: Полиграфкомбинат Республики Казахстан, 2018.- 640 с.

5. Комментарий к Конституции Республики Узбекистан / ред. Ш.З. Уразаев. - Ташкент: Издательство Узбекистон, 2001.- 575 с.

6. Комментарий к Конституции Российской Федерации (постатейный) / под ред. Т.Я. Хабриевой. – М.: ИНФРА-М, 2021.- 368 с.

7. Пляхимович И.И. Комментарий к Конституции Республики Беларусь: в 2-х т. Т. 1. - Минск: Амалфея, 2015.- 1224 с.